# Qəbələdəki abidə barədə məlumat verilir

**_Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Nəcəf Müseyiblinin rəhbərliyi ilə Qəbələ rayonunda 2012-ci ildən etibarən aparılan arxeoloji tədqiqatlar zamanı eramızdan əvvəl IV minilliyin birinci yarısına aid Qalayeri yaşayış məskənində saxsı qablarda uşaq qəbirləri aşkar olunub. Saxsı qablarda körpə uşaq dəfnləri son xalkolit (eneolit/mis-daş) dövrü Leylatəpə mədəniyyəti üçün xarakterik dəfn adəti olub._**

2018-ci ildə Skopus, Elibrary, EBSCO, Index Copernicus, Erih plus və digər elmi bazalarda indeksləşən “Stratum plus” beynəlxalq elmi jurnalının 2-ci nömrəsində mövzu ilə əlaqədar Nəcəf Müseyiblinin Rusiya alimləri M.Mednikova və S.Korenevskiy ilə birgə “Azərbaycanda xalkolit dövrü Qalayeri yaşayış məskənində Leylatəpə mədəniyyəti uşaq dəfnləri: bioarxeoloji tədqiqatların təcrübəsi” məqaləsi dərc edilib. Həmin abidədən aşkar edilən uşaq skeletlərinin arxeometrik təhlilinin ilkin nəticələri məqalədə öz əksini tapıb.




2019-cu ilin əvvəlində Rusiya Elmlər Akademiyasının Arxeologiya İnstitutunun aparıcı elmi əməkdaşı, tarix elmləri doktoru, antropoloq M.Mednikovanın müəllifi olduğu “Balkan, Qafqaz və Yaxın Şərq erkən əkinçi mədəniyyətlərinin kontekstində uşaq bioarxeologiyası” kitabı geniş oxucu kütləsinə təqdim olunub. Əsər Balkan, Qafqaz və Ön Asiyada neolit və erkən metal dövründə məskunlaşmış əkinçi əhalinin kiçik yaşlı uşaqlarının həyatlarının keyfiyyətinə həsr edilib. Tədqiqat əsərində əkinçiliyə qədəm qoymuş ibtidai cəmiyyətlərdə uşaq fenomeninin tədqiqinin nəzəri və metodiki aspektlərinə toxunulub.

Cənubi Qafqazda erkən əkinçi mədəniyyətləri üzrə ixtisaslaşan mütəxəssislərin unikal tapıntı hesab etdiyi Qalayeri məskənindəki uşaq dəfnləri materialının arxeometrik tədqiqinin nəticələri məhz M.Mednikovanın araşdırmalarında xüsusi yer alıb. Elmi monoqrafiyanın 4-cü fəslinin ilk iki bölümü məhz Qalayeri abidəsində Nəcəf Müseyiblinin aşkar etdiyi uşaq skeletlərinin təhlilinə həsr edilib.

Qalayeri abidəsi saxsı qablardakı dəfnlərdən aşkar edilmiş uşaq skeletlərinin 3-nün fraqmentlərinin arxeometrik analizlərinin nəticələrinə əsasən Azərbaycan ərazisində məskunlaşan erkən əkinçi əhalinin həyat tərzi barədə maraqlı fikirlər irəli sürülüb. Belə ki, 5800-6000 il bundan əvvəl vəfat etmiş uşaqlarda ciddi “C” və “D” avitaminozu və onunla bağlı patologiyalar aşkar edilib. Vitamin qıtlığı özünü sümüklərdə yaş həddinə uyğun olmayan inkişafdan geri qalmada daha qabarıq göstərib.

Sümüklərin kimyəvi, izotop tərkibi ilə Qalayeri abidəsinin xalkolit dövrünə aid torpaq təbəqəsinin eyni göstəricilərinin müqayisəsi maraqlı nəticələr verib. Belə ki, körpələrin sümüklərinin kimyəvi və izotop göstəriciləri Qalayeri məskəninin həmdövr torpaq strukturunun göstəriciləri ilə uyğun gəlmir. Mövcud fikrə görə, ən azından hamiləlik dövründə analar mənsub olduqları tayfa ilə birgə Qalayeri abidəsi ərazisinə köçdən əvvəl digər bölgədə yaşamışlar.

Nəcəf Müseyibli hələ 2015-ci ildə “Azərbaycanın xalkolit dövrü mədəniyyəti” kitabında Qalayeri yaşayış məskənində həmin dövrdə uşaq ölümlərinin statistikasının yüksək olduğunu yazıb. M.Mednikova apardığı tədqiqatlara əsaslanaraq belə bir fikir irəli sürür ki, uşaq ölümlərinin xalkolit dövründə bölgədə yüksək olmasını həm iqlim səbəbləri ilə, həm də sosial səbəblərlə izah etmək olar.

Qeyd edək ki, son dövrlərdə Azərbaycanda aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə edilən antropoloji tapıntıların müasir elmin tələblərinə uyğun arxeometrik təhlillərinin nəticələri əcnəbi mütəxəssislərin ciddi marağına səbəb olmaqdadır.

# Alimlər zamanı geri çeviriblər

*Alimlər kvant kompüteri vasitəsilə zamanı geri çevirməyə nail olduqlarını bəyan ediblər.*

*Rusiya, ABŞ və İsveçrə alimlərinin apardıqları tədqiqatlarda fizikanın təməl qanunlarına zidd olaraq enerji hasil edilməsi barədə düşüncələri kökündən dəyişdirmə potensialının olduğu müəyyən edilib. “Scientific Reports” jurnalında dərc olunan məqalədə qeyd edilir ki, bu tədqiqat kvant kompüterlərinin iş prinsipində yeni ideyalar yarana biləcəyinə əsas verir. Alimlər bildirirlər ki, onların eksperimentləri elektronlar və kvant fizikasından istifadə edilməklə həyata keçirilib. Ən sadə dillə desək, bilyard oyununda kürəciklərin başlanğıc zərbəsi ilə təkrarən yerlərinə qayıtmasını xatırladan bir effekt verib.*

*Moskva Fizika və Texnologiya İnstitutunun alimi Qordey Lesovik bildirir ki, tədqiqatçılar “zamanın termodinamika istiqamətinin tərsinə hərəkət edən vəziyyətini virtual şəkildə yaratmağa nail olublar”. Bu eksperimentin həyata keçirilməsini təmin edən “zaman maşını” elektronlar və kvant kompüterlərində istifadə olunan məlumat ötürücüsü olan kubitlərdən ibarətdir. Gündəlik həyatımızda istifadə etdiyimiz kompüterlərdəki ikili kodlama sisteminin vahidləri 0 və 1 ilə ifadə edilir. Onların düzülümü kodun əmələ gəlməsini təmin edir. Kubitlər isə 0 və 1 vahidlərini qəbul etməklə yanaşı, onları eyni səviyyədə təmsil edir.*

*Həyata keçirilən “Zamanda səyahət” eksperimentində istifadə olunan kvant kompüterində kubitlərin gedərək daha bir mürəkkəb şəkildə 0-dan 1-ə və əks istiqamətdə məlumat vahidi dəyərini dəyişdirdiyi bildirilir. Bu müddətdə kodu təşkil edən dəyər silsiləsi tamamilə yox olur, üçbucaq formasında duran bilyard şarlarının bir zərbə ilə ətrafa dağılmasına bənzəyir.*

*Kvant kompüterində olan digər proqram isə öz-özünə yayılan kod xaosunun içərisindən bir nizam yaradılması və kubitlərin başlanğıc nöqtələrinə geri dönməsidir. Yəni, tədqiqatçılar zərbənin təsiri ilə ətrafa səpələnən bilyard şarlarının yenidən üçbucaq formasında çıxış nöqtəsinə qayıtmasına bənzəyən eksperimentin kvant fizikası vasitəsilə həyata keçirildiyini bildirirlər.*

*Tədqiqat qrupu iki kubitlə çalışdıqları vaxt **zamanı geri döndürmə səviyyəsinin 85 faiz olduğunu** da əlavə edib. Kubitlərin sayı üçə yüksəldikdə isə bu səviyyə 50 faizə enir.*

*Qordey Lesovik alqoritmimizin gələcəkdə daha da inkişaf edəcəyini və kvant kompüterlərində olan səhvlərin aradan qaldırılacağını qeyd edir.*

# Bədii ədəbiyyata maraq artır

Nohurqışlaq kənd tam orta məktəbində şagirdlərin bədii ədəbiyyata marağını artırmaq üçün ardıcıl olaraq müxtəlif tədbirlər həyata keçirilir.

Təhsil ocağında təşkil olunan kitab müzakirələri, kütləvi oxu, diskusiyalar, sual-cavab günləri bu qəbildəndir. Təsadüfi deyil ki, son vaxtlar məktəbdə bədii ədəbiyyat üçün kitabxanaya müraciət edənlərin sayı xeyli artıb.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamı ilə son illər yüksək keyfiyyətlə nəşr olunmuş Azərbaycan və dünya ədəbiyyatı nümunələri sayəsində məktəb kitabxanası çox zənginləşdirmişdir.

Bu günlərdə məktəbdə bədii ədəbiyyatın təbliği ilə əlaqədar növbəti tədbir keçirilmişdir. Ədəbiyyat müəllimi Gülşad Xəlilovanın təşkilatçılığı ilə keçirilən tədbirdə Mark Tvenin “Tom Soyerin macəraları” əsərindən “Fərasətli oğlanın hekayəsi” müzakirə olunub.

Müzakirələrdən məlum oldu ki, tədbirdə iştirak edən V sinif şagirdlərinin hamısı bu hekayəni maraqla oxumuşdur. Maraqlı keçən müzakirənin sonunda ədəbiyyat müəllimi Gülşad Xəlilova və kitabxanaçı Aygün Əhmədova kitabxanaya gətirilmiş yeni bədii ədəbiyyat nümunələri haqqında şagirdlərə məlumat vermiş, yaşlarına görə hansı kitabları oxumalı olduqları barədə tövsiyələrini çatdırmışlar.

**Yaqub TAHİROV,**
**məktəbin direktoru.**

# Hərbi-vətənpərvərlik tərbiyəsi diqqət mərkəzindədir

***Nohurqışlaq kənd tam orta məktəbində şagirdlərin hərbi-vətəpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Məktəbdə müntəzəm olaraq Qarabağ müharibəsi veteranları ilə, keçmiş hərbiçilərlə, şəhid ailələrinin üzvləri ilə görüşlər keçirilir. Tədbirdə ordumuz haqqında şagirdlərə müfəssəl məlumat verilir. Bunun nəticəsidir ki, məktəbin məzunları orduda ləyaqətlə xidmət edirlər. Onların arasından xeyli bacarıqlı zabit kadrları yetişmişdir.***

Bu günlərdə məktəbdə hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmuş növbəti tədbir keçirilmişdir. Tədbiri məktəbin direktoru Yaqub Tahirov açmışdır. Direktor məktəbdə hərbi-vətənpərvərlik tərbiyəsinin təşkili barədə ətraflı məlumat vermişdir.

2016-cı ilin aprelində Qarabağ cəbhəsində baş vermiş, ordumuzun düşmən üzərində qalibiyyəti ilə başa çatmış döyüşlərin iştirakçısı, təqaüddə olan hərbçi Ədalət Haqverdiyev tədbirdə çıxış edərək bildirmişdir ki, müharibə şəraitində olan ölkəmizdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə təşkil olunması çox vacibdir. Yaxşı haldır ki, Nohurqışlaq kənd tam orta məktəbində bu məsələ həmişə diqqət mərkəzindədir. Natiq ordumuzdakı yüksək döyüş hazırlığı vəziyyətindən danışmış, silahlı qüvvələrimizin işğal atlındakı torpaqlarımızı hər an azad etməyə qadir olduğunu bildirmişdir.



Ehtiyatda olan hərbi qulluqçu Mürvət Abışov da çıxışında ordumuzun Qafqazda ən güclü və hazırlıqlı ordu olduğunu faktlarla tədbir iştirakçılarının nəzərinə çatdırmışdır.

Tədbirdə rayon təhsil şöbəsinin məsul işçiləri Rasim Bayramov və Camal Qurbanov çıxış edərək şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqətin artırılmasının vacibliyini vurğulamışlar.

Sonda şagirdlərin ifasında hərbi-vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər səslənmiş, kompozisiyalar nümayiş olunmuşdur.

**Səfa ASLANOV,**
**“Qəbələ”**

# Azot gübrəsinin güzəştli şərtlərlə satışı keçirilib

Qəbələdə azot gübrəsinin güzəştli şərtlərlə səyyar satışı keçirilib.

Fevraldan etibarən “Aqrolizinq” ASC tərəfindən rayon mərkəzindən uzaq məsafədə yerləşən kəndlərdə mövsüm başa çatmamış azot gübrəsinin güzəştli şərtlərlə səyyar satışına başlanılıb.

Aprelin 18-də Çuxur Qəbələ kəndində təşkil edilən səyyar satışın həyata keçirilməsində əsas məqsəd gübrələrin alışı zamanı vətəndaşların sərf etdikləri zaman, məsafə itkisinin və əlavə məsrəflərin qarşının alınması, həmçinin vətəndaş məmnuniyyətinə nail olunmasıdır.

**“Qəbələ”**